# Azərbaycana qarşı rəsmi İrəvanın törətdiyi qanlı əməllərin üstü açılır

Bakı Hərbi Məhkəməsinin hakimi Zeynal Ağayevin sədrliyi ilə 15 nəfər təqsirləndirilən şəxsin işi üzrə məhkəmə prosesi yanvarın 27-də davam etdirilib. Xatırladaq ki, onlar Ermənistan dövləti və onun silahlı qüvvələri, o cümlədən Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma "Dağlıq Qarabağ respublikası" və onun qanunsuz silahlı birləşmələri tərəfindən Azərbaycana və xalqına qarşı sülh və insanlıq əleyhinə cinayətlərdə, müharibə cinayətlərində, o cümlədən təcavüzkar müharibə aparma, soyqırımı, əhalini məcburi köçürmə, təqib, işgəncə, hərbi soyğunçuluq və digər qanunsuz əməllərdə təqsirləndirilirlər.

Qeyd edək ki, bu tarixi məhkəmə prosesində təqsirləndirilən şəxslər həm erməni və rus dillərində tərcüməçilərlə, həm də vəkillərlə təmin olunublar. Məhkəmə prosesində zərərçəkənlər də iştirak edirlər.

Məhkəmə prosesində Ruben Vardanyanın və onun vəkilinin vəsatətlərinə də baxılıb. Bildirək ki, təqsirləndirilən şəxs məhkəmədən ötən müddət ərzində cinayət işinin materialları ilə ətraflı tanış ola bilmədiyinə görə əlavə 30 iş günü vaxt verilməsini xahiş edib. Bundan sonra ittiham tərəfi vəsatətlərə münasibət bildirib.

Dövlət ittihamını müdafiə edən prokuror mövcud prosessual qənaət prinsipindən çıxış edərək, təqsirləndirilən şəxsə indiyə qədər iş materialları ilə tanış olmaq üçün kifayət qədər vaxt verildiyini, o cümlədən ötən prosesdə təqsirləndirilən şəxsin vəsatəti əsasında istintaq materialları ilə tanış olmaq üçün əlavə 10 gün vaxt verildiyini bildirərək məhkəmə hazırlıq iclasının müddətinin lüzumsuz uzadılmasına qarşı çıxıb.

Sonra məhkəmə vəsatətlərə münasibət bildirmək üçün müşavirəyə gedib. Müşavirədən sonra elan olunan qərara əsasən, R.Vardanyanın cinayət işi materialları ilə tanış olmaq üçün əlavə vaxt verilməsi ilə bağlı və digər vəsatətləri təmin edilməyib.

Müxtəlif cinayət əməllərində təqsirləndirilən separatçıların məhkəməsi Ermənistanı da narahat etməyə başlayıb. Çünki prosesin gedişində yavaş-yavaş müttəhimlərin dili ilə rəsmi İrəvanın Azərbaycana qarşı törətdiyi bütün qeyri-insanı cinayətlərin, qanlı əməllərin üstü açılır. Məhkəmə prosesinin gedişində təqsirləndirilən şəxs Arayik Harutyunyan 44 günlük Vətən müharibəsi zamanı Gəncəyə raket zərbəsi endirilməsi ilə bağlı verdiyi açıqlamadan təəssüfləndiyini bildirib. "Azərbaycan xalqı hesab edir ki, bu əmri mən vermişəm. Bu qərarı mən verməmişəm. Bəli, bununla bağlı açıqlamam var idi. İndi bu açıqlamadan təəssüflənirəm və üzr istəyirəm. Mənim o hüququm, o səlahiyyətim, hətta fikir bildirmək imkanım da yox idi".

Arayikin məhkəmədə dediyi bu sözlər baş nazir Nikol Paşinyanı əməlli-başlı qorxuya salıb, yuxusuna haram qatıb. Təbiidir ki, bu gözləniləndir. Çünki İkinci Qarabağ müharibəsinin getdiyi günlərdə işğalçı ölkənin ali baş komandanı Paşinyan olub. Müharibə ilə bağlı bütün əmr və göstərişləri də o verib. Elə indi də hakimiyyətdə odur. 10 noyabr kapitulyasiya aktına da Ermənistan adından imza atan Paşinyandı. Deməli, həmin günlərdə verilən bütün əmr və göstərişlərin də arxasında o, durur. Baş verən hadisələrin bütün məsuliyyəti də onun üzərinə düşür.

Bundan möhkəm əl-ayağa düşən Ermənistanın baş naziri N.Paşinyan yanvarın 25-də İctimai Televiziyaya verdiyi müsahibəsində guya regional eskalasiyaya rəvac vermək məqsədilə separatçı rejimin nümayəndələrinə qarşı psixotrop maddələrin tətbiq olunması ilə bağlı iddialar səsləndirib. Erməni baş nazir yenə də sərsəm-sərsəm danışaraq deyib ki, guya Arayik Gəncənin vurulması ilə bağlı məhkəmədə etirafını narkotik təsiri altında edib. Baş nazir bu sözlərlə ictimaiyyəti çaşdırmağa, izi azdırmağa çalışır. Təbiidir ki, Paşinyanın söylədikləri başdan-ayağa yalan və uydurmadır. Onun dediklərinə özündən başqa kimsə inanmır. Çünki onun dilə gətirdiklərinin heç biri inandırıcı deyil, həqiqəti əks etdirmir.

Nikol Paşinyanın iftira və yalanları cavabsız qalmadı. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistanın baş naziri Nikol Paşinyanın İctimai Televiziyaya müsahibəsi zamanı irəli sürdüyü iddialarına münasibət bildirərək deyib ki, təqsirləndirilən şəxslərin bütün hüquq və vəzifələri lazımi qaydada təmin olunub və izah edilib, bütün məhkəmə prosesi və ifadələri qeydə alınıb. Azərbaycanda məhbuslara qarşı qəddar rəftarla bağlı iddialar müstəqil şəkildə, o cümlədən Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən araşdırılıb və bu iddiaların yalan olduğu təsbit edilib. Ermənistan tərəfindən belə bir bəyanatın verilməsinin, bu ölkənin siyasi rəhbərliyinin bir zamanlar Azərbaycana qarşı təcavüz aktı və siyasətini davam etdirmək naminə bütün vasitələrlə açıq şəkildə dəstəklədikləri şəxslərin hazırda müharibə cinayətləri törətməkdə ittiham olunması ilə əlaqədar davam edən məhkəmə prosesi ilə bağlı nə qədər əsəbi olduğunu nümayiş etdirdiyi aydındır. Üzdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını iddia edən Ermənistan baş nazirinin ölkəmizin ərazilərində saxladığı qondarma rejimi təbliğ etdiyini və 2 sentyabr 2023-cü il tarixində, nümayəndələrinin Azərbaycan tərəfindən məsuliyyətə cəlb edilməsindən bir neçə həftə əvvəl, separatçı xunta rejimini qondarma "müstəqillik" münasibətilə təbrik etdiyini heç kim unutmayıb. Ermənistanın işğalçı və təcavüzkar ölkə kimi dövlət məsuliyyəti və bir sıra qanunsuz əməlləri danılması mümkün olmayan faktdır.

Beləliklə, bu əməllərdə təqsirləndirilən şəxslərin məsuliyyətə cəlb olunması haqq işidir.

Hakimiyyətə gəldiyi ilk günlərdən ikibaşlı oyun oynayan Nikol Paşinyan bir tərəfdən müxtəlif bəhanələrlə Zəngəzur dəhlizinin açılmasını yubadır, amerikalı hərbçiləri sərhədə çağırır, Fransadan, Hindistandan silah alır, digər tərəfdən də dinc həyatdan, sülhdən, əmin-amanlıqdan dəm vurur. Paşinyan ənənəsinə sadiq qalaraq çirkin siyasətindən əl çəkmir. Baş nazirin iftira və yalanlarından görünən odur ki, o Gəncənin vurulması ilə bağlı Arayikin etirafından təşvişə düşüb. Ona görə də yalanlar uydurur, narkotikin təsirini ortalığa atır. Paşinyan belə mənasız açıqlamalarla məsuliyyətdən qaçmağa, öz günahını başqasının üstünə atmağa, bulanıq sudan duru çıxmağa çalışır. Paşinyanın məhkəmədə dindirilən separatçıların guya psixotrop dərmanların təsiri altında ifadə verməsi ilə bağlı səsləndirdiyi fikirlər başdan-ayağa cəfəngiyyatdır. Ermənistanın baş naziri belə yalan bəyanatları, açıqlamaları ilə Azərbaycanın təqsirləndirilən şəxslərlə bağlı keçirdiyi şəffaf məhkəmə prosesinə kölgə salmaq istəyir. Amma belə yalanlarla, cəfəngiyyatla məqsədinə çata bilməyəcək. Şəffaf, necə deyərlər, dünyanın gözü qarşısında keçirilən məhkəmə prosesində kimin kim olduğu ortaya çıxacaq, kimin doğru olduğunu bütün dünya görəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.-31 yanvar (№21).- S.7.